# Həyata Optimist və Pessimist Baxış

Nəsimi Piriyev[1]
İslam Araşdırmaları Fakültəsində Tədqiqatçı, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran.

## Abstrakt

İslam dini insanlara hüsnü-zənn (xoşgümanlıq) və müsbət düşüncəni tövsiyə edir. Bədgümanlıq isə qəlbin korlanmasına, ictimai əlaqələrin zəifləməsinə və mənəvi çöküşə səbəb olur. Başqa ibarətlə desək, İslam həyata optimist baxmağı tövsiyə edir və imkan daxilində pessimist baxışdan çəkindirir. Ümumiyyətlə, bu məqalə, insanın həyata baxışını dini, mənəvi, psixoloji və ictimai cəhətdən araşdırır. Məqalədə həmçinin hüsni-zənnin faydaları və bədgümanlığın səbəbləri, zərərləri və onunla mübarizə yolları önə çəkilir. İslam əqidəsinə görə, bədgümanlıq insanın fərdi və ictimai həyatında mənfi təsirlər yaradan, ibadətlərin mənasını pozan və mənəvi təkamülün qarşısını alan ciddi bir ruhi xəstəlikdir.

**Açar Sözlər:** Düşüncə, Optimist, Pessimist, Xoşgümanlıq, Bədgümanlıq.

[1]. Email: nesimipiriyev.az@gmail.com

## Giriş

İslam dini insanlara hüsnü-zənn (yaxşıgümanlıq) və müsbət düşüncəni tövsiyə edir. Bədgümanlıq isə qəlbin korlanmasına, ictimai əlaqələrin zəifləməsinə və mənəvi çöküşə səbəb olur. Bu məqalə bədgümanlığın növlərini, səbəblərini və onunla bağlı İslami məsələləri sistematik şəkildə təhlil etməyə çalışır.

Hüsnü-zənn, ya xoşgümanlıq İslamın insanlara tövsiyə etdiyi ən önəmli əxlaqlardan biridir. İnsanlar barəsində yaxşı və müsbət düşünmək əsas vəzifəmiz olmalıdır. Sui-zənn, başqa ibarə desək bədgümanlıq isə, bəyənilmir, hətta bəzən günah sayılır. Ümumiyyətlə, bədgümanlıq insanı qeybətə sürükləyən başlıca səbəblərdən biridir. Sui-zənn qəlbin qeybətidir və başqaları haqqında pis düşüncələrin qəlbdə özünə yer tapmasıdır. Sui-zənn qəlbi və ağılı xəstə, məzacı pozulmuş insanların mübtəla olduğu bir mərəzdir. Sağlam insan daim başqaları haqqında gözəl düşünər. Bədgümanlıq üçün ciddi səbəb lazımdır. Adi bəhanələr ilə kiməsə qarşı pis düşünə bilmərik.

**Açar sözlər:** Xoşbinlik, bədgümanlıq, optimist, pessimist, müsbət, mənfi

## Giriş

Dünya həyatı insanın axirət taleyini müəyyən edən qısa, lakin son dərəcə əhəmiyyətli bir imtahan məkanıdır. İnsanın bu dünyada keçirdiyi hər an, onun əbədi səadətini təyin edir. Bu səbəbdən dünya həyatının dəyəri böyükdür və hər bir anın qiyməti bilinməlidir. İslam dini insanı həm dünyevi, həm də mənəvi tələblər arasında tarazlıq saxlamaya çağırır.

Dünya həyatı insan üçün bir imtahan yeridir. Quran ayələrində dəfələrlə vurğulanır ki, insanın var-dövləti, övladı və digər nemətlər onun üçün bir sınaq vasitəsidir: "*Bilin ki, var-dövlət və övlad sizin üçün yalnız bir imtahandır.*" (Ənfal surəsi, 28) _Bu imtahanda insanın vəzifəsi, dünya nemətlərindən istifadə edərək axirət səadətini qazanmaqdır.

İslam dini var-dövlət qazanmağı və iqtisadi fəaliyyəti qadağan etmir, əksinə, onu təşviq edir. Peyğəmbərlər və məsum imamlar öz dövrlərində iqtisadi cəhətdən fəal olmuş, ictimai rifah üçün çalışmışlar. Məsələn, Peyğəmbər Süleyman (ə) Allahdan özünə misli görünməmiş bir mülk istəmişdir: "*Pərvərdigara, məni bağışla və mənə kimsənin nail ola bilməyəcəyi mülk ver.*" (Sad surəsi, 35) Bu, İslamın var-dövlətə münasibətini göstərir: var-dövlət öz-özünə məqsəd deyil, Allah yolunda xidmət etmək üçün bir vasitədir.

İslam dünya nemətlərindən halal dairədə istifadə etməyə icazə verir, lakin israfdan qaçınmağı tövsiyə edir. Quran deyir: "*Ey Adəm oğulları, hər ibadət vaxtı gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz.*" (Əraf surəsi, 31) Dünya nemətləri Allahın bəndələrinə verdiyi lütflərdir və onlardan şükr edərək istifadə etmək lazımdır.

Əsas təhlükə var-dövlətin özünə deyil, ona olan hədsiz bağlılıqdır. İnsan var-dövləti məqsəd kimi görüb Allahı unutduqda, bu onun mənəvi həyatı üçün təhlükə yaradır. Quran

xəbərdarlıq edir: "*Var-dövlət və övlad sizin üçün yalnız bir imtahandır.*" (Ənfal surəsi, 28) Var-dövlət insanı Allahdan uzaqlaşdırmamalı, əksinə, Onun yolunda xərclənməlidir.

İslam qənaəti və infakı (Allah yolunda xərcləməyi) təşviq edir. Qənaət insanı ehtiyaclarını ağılla qarşılamağa, infak isə ictimai ədaləti təmin etməyə yönəldir. Quran deyir: *"Sevdiyiniz şeylərdən sərf etməyincə savaba çatmazsınız."* (Ali-İmran surəsi, 92) Bu ayət insanı öz sevdiyi nemətlərdən başqaları üçün xərcləməyə çağırır.

Dünya həyatı insan üçün bir imtahan məkanıdır. Var-dövlət və digər nemətlər bu imtahanın bir hissəsidir. İslam dini insanı dünya nemətlərindən halal şəkildə istifadə etməyə, lakin onlara hədsiz bağlanmamağa çağırır. Əsas məqsəd dünyanı axirət üçün bir körpü kimi istifadə etmək, Allahın rəzasını qazanmaq və ictimai rifah üçün çalışmaqdır.

## Bədgümanlığın Növləri

### *1. Allaha Qarşı Bədgümanlıq*

Allaha qarşı bədgümanlıq Onun rəhmini, mərhəmətini və ədalətini şübhə altına almaqla özünü göstərir. Bu, insanın öz günahlarına görə bağışlanmayacağına inanması, ilahi lütfdən ümidini kəsməsi və ya Allahın bəndələrinə haqsız ruzi verdiyi fikrinə qapılmasıdır. Quran ayələri və əhdislər belə bir düşüncəni qəti şəkildə rədd edir. Məsələn, Quran deyir: *"Mən bəndəmin Mənə qarşı olan gümanına uyğun davranaram. Əgər o Mənim barəmdə yaxşı düşünsə, ona yaxşılıq edərəm; əgər pis düşünsə, onun pis gümanına uyğun rəftar edərəm."* (Bəni İsrail surəsi, 17) Bu növ bədgümanlıq insanı imansızlığa, ümidsizliyə və ruhi sıxıntıya aparır.

### *2. Bəndəyə Qarşı Bədgümanlıq*

Bu, digər insanlar haqqında sübut olunmamış pis fikirlər qurmaq və onların hərəkətlərini mənfi şərh etməkdir. İmam Əli (ə) buyurur: "Yaxşı insana qarşı bədgümanlıq ən pis günah və ən çirkin zülmdür."

Bu cür bədgümanlıq qeybət, iftira və nifaq kimi günahlara səbəb olur. İslam təlimləri insanları digərləri haqqında pis fikirlərdən çəkinməyə və onların hərəkətlərini ən yaxşı şəkildə şərh etməyə çağırır.

### *3. Həyata Qarşı Bədgümanlıq*

Bu, insanın həyatda qarşılaşdığı çətinliklər, iqtisadi problemlər və fərdi uğursuzluqlar qarşısında məyusluğa qapılmasıdır. Belə bir düşüncə insanı depressiyaya, ümidsizliyə və həyatın mənasını itirməyə aparır. İslam isə səbir, təvəkkül və Allaha etimad etməyi tövsiyə edir. Quran deyir: *"Şübhəsiz, çətinliklə yanaşı asanlıq da var."* (İnşirah surəsi, 5)

Həyata qarşı müsbət münasibət insanın ruhi sağlamlığı üçün çox önəmlidir.

### *4. Özünə Qarşı Bədgümanlıq*

Bu növ bədgümanlıq insanın özünü daim günahkar, yetersiz və dəyərsiz hesab etməsidir. Lakin bu, mənfi mənada deyil, insanın öz nöqsanlarını görüb təkmilləşməyə çalışması mənasında olmalıdır. İmam Əli (ə) buyurur: "Mömin şəxs öz nəfsi barəsində bədgüman olur, daim onun eyiblərini axtarır və ondan daha artıq fəaliyyət gözləyir."

Bu, insanı təvazökarlığa, özünütənzimə və mənəvi təkamülə aparır.

## Bədgümanlığın Səbəbləri

1. ***Nəfsi Zəiflik:*** İnsanın öz qorxularını və qüsurlarını başqalarına proyeksiya etməsi.
2. ***İmansızlıq və ya Zəif İman***: Allaha və Onun ədalətinə tam etimad etməmək.
3. ***Pis Mühit***: Əxlaqsız və mənfi düşüncəli insanlarla ünsiyyət.
4. ***Cəhalət***: Din və mənəvi dəyərlər haqqında yetərsiz bilik.

**Bədgümanlığın Zərərləri**

1. **Fərdi Zərərlər**:
   - Ruhi sıxıntı və depressiya.
   - İbadətlərin mənasının pozulması.
   - Özünəinamın itirilməsi.
2. **İctimai Zərərlər**:
   - Qarşılıqlı etimadın itirilməsi.
   - Dostluq və ailə əlaqələrinin zəifləməsi.
   - İctimai işlərin ağırlaşması.

**Bədgümanlıqla Mübarizə Yolları**

1. ***Hüsnü-Zənn (Xoşgümanlıq)***: İnsanlar haqqında müsbət düşünmək.
2. ***Təfəkkür və Tədbir:*** Səbəbsiz şübhələrdən qaçınmaq.
3. ***Dua və İbadət:*** Allaha sığınmaq və Onun mərhəmətindən ümid etmək.
4. ***Müsbət Mühit:*** Yaxşı insanlarla ünsiyyət qurmaq.

Beləliklə, insanın bədgümanlıq etməsinə səbəb olan amillər aşağıdakılardır:

a) Bədgüman insanın xüsusi zəifliyə və ruhi sarsıntıya düçar olması onu başqaları barəsində pis gümanlar etməyə vadar edir.

b) İmansızlıq və ya imanın zəif olması bədgümanlığın digər amilidir. Ə Başqa bir hədisdə isə buyurur: *"İman bədgümanlıqla bir yerə yığışmaq."*[2]

v) Batinin alçaq təbiətli olması, gözəl əxlaqdan və insani səciyyələrdən uzaq olmaq sui-zənnin digər bir səbəbidir. İmam Əli (əleyhis-salam) buyurur: *"Xəyanət etməyən bir şəxsə qarşı bədgüman etmək alçaqlıqdır."*[3]

Camaatın qarşı tərəfə (bədgüman insanın sui-zənn etdiyi şəxsə) qarşı sui-zən etməsinin səbəbləri aşağıdakılardır:

---

[2] - "Ğürərul-hikəm", səh. 264

[3] - "Biharul-ənvar", 75-ci cild, səh. 93

a) Töhmət məqamında qərarlaşmaq. Bəzən insan özünü elə yerlərdə qərar verir ki, camaat onun barəsində bədgüman etməsinə səbəb olur. Elə işlər görür ki, hər kəs onu görsə onun barəsində pis fikirləşər. Bu işə də islam nəzərindən icazə verilmir. Çünki belə olan halda insan öz ixtiyarı və iradəsi ilə başqalarının onun barəsində bədgüman etməsinə şərait yaradır və onun müqəddimələrini hazırlayır. Əli (əleyhis-salam) buyurur: “Hər kəs pis və nalayiq yerlərə daxil olsa, müttəhim olunar. Özünü töhmətə məruz qoyan şəxs onun barəsində bədgüman edənləri məzəmmət etməsin.”[4]

Rəvayət olunmuşdur ki, bir gün Peyğəmbəri-Əkrəm (səlləllahu əleyhi və alih) öz həyat yoldaşı Səfiyyə (Hüyy ibni Əxtəbin qızı) söhbət edirdi. Bu zaman ənsardan olan bir kişi oradan keçirdi. **Peyğəmbər onu çağırıb buyurdu:** *“Ey filankəs! Bu qadın arvadım Səfiyyədir! (Yəni gərək qəlbindən pis fikir keçməsin).”*

**O kişi dedi**: “Ey Allahın Rəsulu! Məgər biz sənin barəndə yaxşılıqdan başqa bir şey fikirləşə bilərikmi?!”

**Həzrət buyurdu:** “Şeytan qan kimi insanın bütün bədənində cərəyan edir və mən də (onun) sənə daxil olacağından (yəni mənə qarşı sui-zənn edəcəyindən) qorxdum.”[5]

Pis fikir, bədbinlik, sui-zənn xalqın mühakiməsi nümunələridir. İnsan başqalarının yersiz mühakimə yürütməsinə şərait yaratmamalıdır. Bununla yanaşı, başqalarının razılığı üçün çalışmamalıyıq. Yalnız Allahın razılığını qazanmaq istəyənlər düzgün yoldadırlar. Bəzən insanların istəyi Allahın istəyindən fərqlənir. İnsanlar bəzən yersiz mühakimələr yürüdür, nahaq tərif və nahaq ittihama cəhd edirlər. Deməli, insan öz əməlləri ilə xalqın diqqətini cəlb etməyə çalışmamalı, eyni zamanda, ehtiyatlı olmalıdır ki, xalq ona münasibətdə bədbin olmasın. Yəni xalqın razılığı üçün çalışmamaq ayrı bir məsələdir,

---

[4] - Nəraqi, Molla Məhdi, “Camius-səadat”, 1-ci cild, səh. 319

[5] - “Biharul-ənvar”, 71-ci cild, səh. 191

bədbinliyə şərait yaratmamaq isə başqa bir məsələ. Allahın razılığını qazanmaq bütün hallarda zəruridir. İnsan daim düşünməlidir ki, onun hərəkətləri Allahın razılığına uyğundur, yoxsa yox?

Allah-təala icazə vermir ki, mömin şəxs özünü abırdan sala və ya başqalarına ehtiramsızlıq göstərə. Mömin şəxsin hörməti gözlənilməlidir. Başqalarına səni hörmətdən salmaq icazəsi verilmədiyi kimi, sən də öz hörmətini və digər möminlərin hörmətini qorumalı, sui-zənn və yersiz ittihamlara yol açmamalısan. Mömin şəxs ittiham üçün şərait yaratmamalıdır. Eləcə də, başqaları ittiham olunmamalıdır. Əlbəttə ki, bu iki qaydaya əməl etmək çox çətindir. Bir tərəfdən xalqın razılığını güdməməli, digər tərəfdən onların bədbin olması üçün şərait yaratmamalıyıq. Bu sərhədləri dəqiq qorumaq asan deyil. İnsan öz eyb və günahlarını gizlətməlidir. Xalqdan gizli qalmış eyblərimizi açıqlamağa ixtiyarımız yoxdur. Bu qaydaya riayət edilsə, insana qarşı müsbət fikir yaranar. Bu, ilahi bir nemətdir və bu nemətin qədrini bilmək lazımdır.

Əgər haqqınızda ictimai rəy müsbət olarsa, xalq sizə inanarsa, bu inam sizi yaxşılığa vadar edər və çalışarsınız ki, insanların rəyini doğruldasınız. Əgər sizə aid edilən kamillik və gözəl xasiyyətlər sizdə yoxdursa, bu sifətləri əldə etməyə çalışın. Əgər xalq düşünürsə ki, siz ibadət və təqva əhlisiniz, bu rəyləri həqiqətə çevirməyə səy göstərin. Əgər sizi doğruçu hesab edirlərsə, çalışın ki, yalan danışmayıb, dilinizi əsassız sözlərdən qoruyasınız. Bir sözlə, xalqın müsbət rəyi nemətini əldən çıxarmayın.

Sözsüz ki, mömin, müvəhhid, kamil imana malik insanlara belə tövsiyyələr verməyə ehtiyac yoxdur.

b) Pis və şər adamlarla oturub-durmaq. Adətən, şər və əxlaqsız adamlar saleh və düz insanlara qarşı sakit dayanmır, onlardan eyib tapmağa çalışır, onlarda kiçik bir zəiflik və nöqsanlı hal görən kimi onu şişirdir, zəiflik tapa bilmədikdə isə özündən bir eyib düzəldirlər.

## Nəticə

İslam dini insanlara həmişə xoşgümanlıq (hüsn-i zan) sahibi olmağı, bədgümanlıqdan (sui-i zan) isə qaçınmağı tövsiyə edir. Bu, iki əsas sahədə özünü göstərir: Allah Haqqında Xoşgümanlıq; Bu, imanın ən mühüm tələblərindən biridir. Mömin həmişə Allahın rəhmətindən, mərhəmətindən və müdaxiləsindən ümidini kəsməməlidir. Bir hədisdə deyilir: "Mən qulumun Mənim haqqımda etdiyi zanna (düşüncəyə) görə onunla birlikdəyəm." Bu o deməkdir ki, insan özünü çətin vəziyyətdə gördükdə belə, Allahın onu sınaqdan keçirdiyinə və sonunda bir xeyir və çıxış yolu yaradacağına inanmalıdır. Allahın mərhəmətindən ümid kəsmək böyük bir səhv sayılır. İnsanlar Haqqında Xoşgümanlıq; Möminlər bir-birləri haqqında düşünərkən ilk növbədə yaxşı fikir yürütməli, hər hansı bir söz və ya hərəkəti pis niyyətlə şərh etməməyə çalışmalıdır. Quranda müminlərin qardaş olduğu bildirilir və qardaş haqqında bədgümanlıq etmək, onun gizli günahlarını axtarmaq qadağandır. Əgər bir şəxsin sözündə və ya əməlində müəmmalı bir məna varsa, onu ən yaxşı şəkildə izah etmək (təvil etmək) tövsiyə olunur. Bu, cəmiyyətdə etimad və qardaşlıq münasibətlərini gücləndirir. Deməli, İslamın təliminə görə, xoşgümanlıq imanın və ümidin, bədgümanlıq isə qorxu və şübhənin ifadəsidir. Mömin həmişə ürəyini pak saxlamalı, həm Yaradana, həm də Onun yaratdıqlarına qarşı gözəl fikir bəsləməyə çalışmalıdır.

**Ədəbiyyat**

Qurani-Kərim

Nəhcül-Bəlağə

Səhifeyi-Səccadiyyə

Amidi, Təmimi, Əbdül-vahid, Dürərul-Hikəm, Tehran: 1984

Amidi, Əbdülvahid Təmimi, Feheresti-Ğurarul-Hikəm, Beyrut: 1996

Amuli, Hürr, Məhəmməd ibn Həsən, Vəsailüş-Şiə, Qum: 1974

Cəfəri, Yəqub, Nəhcül-Bəlağənin Tarixi Baxışı, Tehran: 1996

Cəfəri, Məhəmməd Təqi, Nəhcül-Bəlağənin tərcümə və təfsiri, Qum: 1999

Cordaq, Corc, Nəhcül-Bəlağənın gözəlliklərindən bir hissə, Beyrut: 2001

Cövhəri, İsmayıl ibn Həmmad, Sihahül-Lüğət, Qahirə: 1997

Ədibi, Hüseyn, İctimai təbəqələr sosiologiyası

Ənsari, Məhəmməd Əli, Ğurərul-Hikəm və Durərul-Kəilim

Payəndə, Əbul-Qasim, “Nəhcul-fəsahə”, Tehran: Dünyayi daniş nəşriyyatı1382

Firuzabadi, Məhəmməd ibn Yqub, Qamusül-mühit

Xansari, Ağa Cəmaləddin, Ğurərül-Hikəm”in şərhi

Səduq, Məhəmməd ibni Əli, “Üyunu əxbarir-Riza (əleyhis-salam)” Beyrut: 1956.